NORM
ÖZƏL SEMENT



| **CƏRİMƏ PROSEDURU** | | | |
|---|---|---|---|
| ***Sənəd №: NSZ-HSE-PRS-003*** | ***Təftiş №: 06*** | ***Buraxılış Tarixi: 20.04.2013*** | ***Səhifə sayı: 7*** |

**Qeyd:** Səhifələrin sayı bu üz səhifəsindən və sənədə əlavə edilmiş hər hansı əlavələrdən ibarətdir.

| | | | |
|---|---|---|---|
| ***Müəllif:*** | Nicat Cəbrayılov | ***Vəzifəsi:*** | SƏTƏM Nəzarətçisi |
| ***Sistemə uyğunluğunu nəzərdən keçirib:*** | Elmar Məmmədov | ***Vəzifəsi:*** | Vahid İdarəetmə Sistemi üzrə Müdir |
| ***Təsdiq edib:*** | Henning Sasse | ***Vəzifəsi:*** | Baş İcraçı Direktor |

**Təftişin Statusu**

| Təftiş № | Tarix | Təftiş edən | Təftişin xülasəsi |
|---|---|---|---|
| **01** | 01/06/2016 | Nicat Cəbrayılov | Prosedurun formasında və cərimələrin tətbiqində dəyişiklik edildi. |
| **02** | 27.01.2017 | Fərizə Vahabova | ƏLAVƏ 1- Giriş çıxış kartları və təhkim edilmiş avadanlıq ilə bağlı cərimələr əlavə edildi |
| **03** | 14.07.2017 | Fərizə Vahabova | ƏLAVƏ 1 – Cərimələrin miqdarında dəyişikliklər edildi. |
| **04** | 31.07.2017 | Fərizə Vahabova | ƏLAVƏ 1-ə QEYD əlavə edildi. |
| **05** | 22.01.2018 | Nicat Cəbrayılov | 1. Hüquq şöbəsi ilə bərabər baxış keçirilərək terminologiyada müvafiq dəyişiklik edildi<br>2. ƏLAVƏ 1-Qayda pozuntularının tezliyi əlavə edildi və Cərimələrə dəyişiklik edildi. |
| **06** | 02.05.2018 | Nicat Cəbrayılov | 1. ƏLAVƏ 1—cədvəldə Cərimələrə dəyişiklik edildi<br>2. 4.1 bəndində Baş İcraçı Direktorun məsuliyyətlərində dəyişiklik edildi<br>3. 4.3 Satınalma və Logistika şöbəsinin məsuliyyətləri əlavə edildi<br>4. 4.4 Digər Tərəflərin məsuliyyətləri əlavə edildi<br>5. 6.2 bəndində dəyişiklik edildi |
| | | | |

## Mündəricat

1 Məqsəd ........ 3
2 Tətbiq Sahəsi ........ 3
3 Termin Və Təriflər ........ 3
4 Şirkətin Məsuliyyəti ........ 3
4.1 Baş İcraçı Direktor ........ 3
4.2 SƏTƏM Şöbəsi ........ 3
4.3 Satınalma və Logistika Şöbəsi ........ 3
4.4 Bütün Digər Tərəflər ........ 3
5 İstinad Olunan Sənədlər ........ 4
6 Tətbiq ........ 4
6.1 Prosedurun Tələbləri ........ 4
6.2 Cərimənin Təyin və Tətbiq Edilməsi ........ 4
7 Qeydlər ........ 4

## 1 Məqsəd

Prosedurun məqsədi "Norm" MMC-yə məxsus "Norm Sement" Zavodunun ərazisində Norm MMC ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsi əsasında istənilən növ müqavilə bağlamış bütün fiziki və hüquqi şəxslər (bundan sonra "Digər Tərəflər") tərəfindən görülən bütün işlərə nəzarət tədbirlərini həyata keçirərək aşkar olunan uyğunsuzluqlara görə cərimələrin təyin və tətbiqi üçün tələb və məsuliyyətləri müəyyən etməkdir.

## 2 Tətbiq Sahəsi

Bu prosedurun tətbiq sahəsinə Şirkətin Digər Tərəflərlə imzaladığı müvafiq müqavilələrə əsasən istər "Norm Sement" zavodunun ərazisi, istər isə digər yerlər aid edilir.

## 3 Termin Və Təriflər

**SƏTƏM** – Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit;

**Şirkət** – "Norm" MMC;

**Digər Tərəflər** – Norm MMC ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsi əsasında istənilən növ müqavilə bağlamış bütün fiziki və hüquqi şəxslər

**Prosedur** – hazırkı Cərimə Sistemi Proseduru.

## 4 Şirkətin Məsuliyyəti

### 4.1 Baş İcraçı Direktor

Baş İcraçı Direktor bu prosedura əməl olunmasını təmin etməyə görə məsuliyyət daşıyır.

### 4.2 SƏTƏM Şöbəsi

Şirkətin SƏTƏM şöbəsi təyin edilmiş iş sahələrində mövcud olan vəziyyətin SƏTƏM tələblərinə uyğun olub-olmamasına əmin olmaq üçün mütəmadi olaraq yoxlama aparılmasını təmin edir.

### 4.3 Satınalma və Logistika Şöbəsi

Təchizat və Logistika şöbəsi aşağıdakılara məsuliyyət daşıyır:

- Prosedurda olan dəyişikliklər barədə bütün digər tərəfləri məlumatlandırmaq
- Qada pozuntusu təyin edildikdə digər tərəflərlə əlaqədar olan prosedurun tələblərinin icrasını yerinə yetirmək.

### 4.4 Bütün Digər Tərəflər

Digər Tərəflər aşağıdakılara görə məsuliyyət daşıyırlar:

- Bütün SƏTƏM üzrə qayda və prosedurlardan, o cümlədən bu prosedurdan xəbərdar olmaq.

- SƏTƏM üzrə qayda və prosedurlara tam uyğun xidmət göstərmək.

## 5 İstinad Olunan Sənədlər

Azərbaycan Respublikasının (AR) Əmək Məcəlləsi

Azərbaycan Respublikasının (AR) Mülki Məcəlləsi

Texniki Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının (AR) qanunu

Şirkətin Digər Tərəflərlə bağlamış istənilən növ mülki-hüquqi müqavilələr.

## 6 Tətbiq

### 6.1 Prosedurun Tələbləri

Digər Tərəflər təhlükəsiz və sağlam bir mühitdə işləməsi məqsədi ilə aşağıdakı tələblərə riayət etməlidirlər:

✓ Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi üzrə Şirkət siyasətinin tələblərinə riayət etmək

✓ NORM MMC-nin SƏTƏM prosedurlarının tələblərinə riayət etmək

### 6.2 Cərimənin Təyin və Tətbiq Edilməsi

Cərimə Prosedurunun tələblərinə əsasən, sahədə Digər Tərəflərin SƏTƏM qaydalarını pozduğu SƏTƏM nümayəndəsi və ya hər hansısa bir digər şəxs tərəfindən aşkar edildikdə,hadisə SƏTƏM şöbəsi tərəfindən araşdırılır və qayda pozuntusu NSZ-HSE-FRM-003 Qayda Pozuntusu Bildiriş Vərəqində qeyd edilir. ƏLAVƏ 1-ə uyğun müvafiq tədbir görülməsi üçün SƏTƏM şöbəsi tərəfindən Satınalma və Logistika şöbəsinə yazılı məlumat verilir.

Satınalma və Logistika şöbəsi Digər Tərəfləri müşahidə edilmiş qayda pozuntusu barədə məlumatlandırır və tərəflər arasında bağlanmış müqaviləyə əsasən müvafiq tədbirləri həyata keçirir.

Qayda Pozuntusu Bildiriş Vərəqində qeyd edilən bütün cərimələr bağlanmış Müqavilədə qeyd olunmuş **Ümumi Ödəniş Məbləğindən** tutulur.

## 7 Qeydlər

**Cərimə Cədvəli - NSZ-HSE-FRM-002**

**Qayda Pozuntusu Bildiriş Vərəqi - NSZ-HSE-FRM-003**

## ƏLAVƏ 1

**Qayda Pozuntusu, Təhlükəli Şəraitlər və Cərimələr**

| № | Əməyin mühafizəsi və Texniki Təhlükəsizlik qaydalarının Pozuntusunun növü | 1-ci dəfə | 2-ci dəfə | 3-cü dəfə |
|---|---|---|---|---|
| 1 | SƏTƏM üzrə Giriş təlimati keçmədən İşçinin bir başa hər hansı bir işə başlaması | Yazılı xəbərdarlıq<br>1000 AZN | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir | |
| 2 | Lazimi Fərdi Mühafizə Vasitələrindən istifadə edilməməsi | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 3 | Hündürlükdə iş zamanı işə uyğun təhlükəsizlik kəmərin-dən istifadə olunmaması | Yazılı xəbərdarlıq<br>1000 AZN | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 4 | "İşə icazə" tələb olunan işlərdə "İşə icazə alma" prosedurunun tətbiq edilməməsi və ya prosedur tələblərinin pozulması | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 5 | İş sahəsində işləyərkən hər hansı bir işçinin spirtli içki və ya narkotik maddələrin təsiri altında olduğu aşkar edilərsə | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>Sahədən uzaqlaşdırma, işçinin sahəyə girişi birdəfəlik qadağan edilir | | |
| 6 | Nəqliyyat vasitələrinin təhlükəli idarə edilməsi və sürət limitinin aşılması. Nəqliyyat vasitələrində təhlükəsizlik kəmərlərindən istifadə edilməməsi | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 7 | İş Ərazisinin natəmiz saxlanması | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Ətraf Mühit Problemləri (Tullantıların düzgün saxlanılmaması və zərərsizləşdirilməməsi, yağ və s. dağılmalar, kimyəvi tullantıların düzgün yerləşdirilməməsi) | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 9 | Qaz silindirlərinin təhlükəli saxlanması, istifadəsi və daşınması (Yaxud onların lisenziyasının/sertifikatının olmaması) | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 10 | Skaffoldların (ayaqaltıların, iş-çi platformaların) təhlükəli montajı, istifadəsi və daşınması | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 11 | Sifarişçiyə sahədə baş vermiş hadisələrlə bağlı məlumatın verilməməsi | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 12 | Təyin olunmamış yerlərdə siqaret çəkilməsi | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 13 | Təcridetmə və Kilidləmə əməliyyatlarına əməl olunmaması | Yazılı xəbərdarlıq<br>1000 AZN | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 14 | Yükqaldırma avadanlıqlarının–troslar, kəndirlər, qarmaqlar və s.-nin təhlükəli və ya uy-ğunluq sertifikatı olmadan istismarı. | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 15 | Nərdivanların (qoşa ayaqlı nərdivanlar da daxil olmaqla bütün növ nərdivanlar), pilləkənlərin və bu qəbildən olan digər ayaqaltıların təhlükəli vəziyyətdə olması və onların bu şəkildə istismarı. | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>300 AZN | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdirilmasi |

| | | | | |
|---|---|---|---|---|
| 16 | Giriş-Çıxış kartı itirildiyi və ya iş yekunlaşdıqdan sonra təhvil verilmədiyi təqdirdə, onlardan sui-istifadə halları (başqasının kartından istifadə etməklə əraziyə daxil olma, karta bilərəkdən zədə vurma və.s) | Yazılı xəbərdarlıq | Yazılı xəbərdarlıq<br>500 AZN<br>İşçinin sahədən 1 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir |
| 17 | Təhkim Edilən Avadanlıq/ Əşyanın itirilməsi, təhvil veril-məməsi, yararsız vəziyyətə salınması halında. | Yazılı xəbərdarlıq<br>Avadanlıq/Əşyanın qiymətinin 2 misli həcmində pul cəriməsi. | | |
| 18 | Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik qaydalarının pozulması nəticəsində bədbəxt hadisə baş verməsi və həmçinin müəssisə əmlakına, ətraf mühitə ciddi zərər yetirilməsi | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahədən 2 həftəlik uzaqlaşdırılması | Yazılı xəbərdarlıq<br>1000 AZN<br>İşçinin sahəyə girişi birdəfəlik qadağan edilir | |

**Qeyd:** Digər Tərəflər yalnız **<u>öz fəaliyyətlərinə aid olan</u>** SƏTƏM qayda pozuntularına görə cərimə oluna bilərlər.